## Suallara cavab

**Akif MƏMMƏDOV,**

*pedaqoji elmlər namizədi*

**Sual. "Zakir sözündə bütöv adamdır" cümləsini üzvlərinə görə necə təhlil etmək olar?**

**G.Cəfərova. Abşeron rayonu**

**Cavab.** Cüttərkibli cümlədir. **"Sözündə bütöv adamdır"** - xəbər, "**Zakir"** isə mübtədadır. Cümlənin xəbəri I növ təyini söz birləşməsi formasında olan mürəkkəb söz birləşməsidir. Birləşmənin birinci tərəfi isə **(sözündə bütöv)** dilçilik ədəbiyyatında təyini söz birləşmələrinə daxil olmayan ismi birləşmələr adlanır. Məlumdur ki, I növ təyini söz birləşməsinin tərəfləri (xüsusilə ikinci tərəf) bəzi hallarda elə sintaktik mövqeyə düşür ki, onları ayrı-ayrı üzvlər kimi təhlil etdikdə mənasızlıq yaranır. Bura ikinci tərəfi ən çox "vaxt", "gün", "zaman", "an", "adam" tipli sözlərdən ibarət birləşmələr daxildir. (Bu barədə bax: Y. Seyidov "Azərbaycan dilində söz birləşmələri", səh. 403; A.Məmmədov, "Sintaktik təhlildə bəzi məqamlar", "Azərbaycan dili və ədəbiyyatı tədrisi jurnalı", 2000, №2, səh. 20). Bu cümlədə də belədir: "Zakir necə adamdır?" sualını verib "sözündə bütöv" birləşməsini təyin kimi götürsək xəbər – **"adamdır"** olmalıdır. Onda baş üzvlərdən ibarət cümlə belə alınır: "**Zakir adamdır".** Əslində cümlədə "adamdır" sözü öz semantik rolunu az qala itirməkdədir, onu cümlədən çıxaranda, demək olar ki, heç nə dəyişmir: **"Zakir sözündə bütövdür".** Rəsul Rüstəmovun fikrincə, aşağıdakı cümlələrdə də II tərəfi "adam" sözündən ibarət birləşmələri bir üzv kimi götürmək lazımdır: **Mən sərbəst adamam. Sadə adam xüsusi adamdır. O adam alicənab adam idi və s.** (Y.Seyidov, göstərilən əsər, səh. 408)

**Sual. Xahiş edirəm, aşağıdakı cümləni sintaktik təhlil edəsiniz: "Onun hər xırda şey üçün özündən yuxarılara ağız açanlardan zəhləsi gedir".**

**S.Gözəlova, Beyləqan rayonu.**

**Cavab:** Təktərkibli (şəxssiz) geniş cümlədir. **"Onun zəhləsi gedirdi"** frazeoloji birləşmə ilə ifadə olunan xəbər, **"hər xırda şey üçün özündən**

**yuxarılara ağız açanlardan”** (kimdən zəhləsi gedirdi?) isə feili sifət tərkibi ilə ifadə olunan vasitəli tamamlıqdır. Görünür, burada mübahisə doğuran məsələ tamamlığın xəbərin içərisində işlənməsidir. Məlumdur ki, **“zəhləsi getmək”** birləşməsi özündən əvvəl müəyyən yiyəlik halda söz tələb edir və onunla birlikdə bir üzv kimi işlənir: “Onun zəhləsi gedirdi”; “Əhmədin zəhləsi gedirdi”; “Uşağın zəhləsi gedirdi” və s. Belə frazeoloji birləşmələrin birinci tərəfi III növ təyini söz birləşməsi formasında olur (onun zəhləsi, uşağın zəhləsi) və araya istənilən qədər söz daxil etmək imkanı yaranır. Araya daxil olan belə söz və söz birləşmələrinin hansı üzv kimi götürülməsində dolaşıqlığı isə TQDK-nın “Abituriyent” jurnalındakı aşağıdakı tövsiyə yaratmışdır: “III növ təyini söz birləşməsinin tərəfləri arasındakı daxili təyinləri ayırmamaq tövsiyə olunur” (“Abituriyent”, 2000, №11, səh.19). Əvvəla, tövsiyənin elmi əsası yoxdur; təyin təyindir, istər daxili olsun, istər xarici. İkinci, belə bir müddəa şərti olaraq qəbul edilsə də, təhlilə cəlb etdiyimiz cümlədə araya girən feili sifət tərkibi təyin yox, tamamlıq funksiyasındadır. Asanlıqla cümləni belə bir şəklə də salmaq olar: Hər xırda şey üçün özündən yuxarılara ağız açanlardan onun zəhləsi gedirdi.

**Sual. “O, paltosunu geyinib, otaqdan çıxdı” cümləsindəki “geyinib” sözünü zərflik hesab etmək olarmı?**

***Z. Musayeva. Bakı şəhəri***

**Cavab.** Xeyr. Çünki bu söz xəbərdəki (çıxdı) hərəkətinin tərzini, zamanını və ya səbəbini bildirmir, **geyinmək** işi qurtardıqdan sonra əsas xəbərdəki (“çıxdı”) hərəkət baş vermişdir. VI sinfin dərsliyində **-ıb** şəkilçili (o cümlədən -araq, -ərək) feili bağlamaların vəzifəsindən biri də belə ifadə olunur: “İşin əsas feildəki işdən əvvəl icra olunduğunu bildirir: “S.Vurğun 1924-cü ildə Qazax Pedaqoji Texnikumunu bitirib, Azərbaycanın bir sıra rayonlarında müəllimlik etmişdir” (“Azərbaycan dili”, VI siniflər üçün; 1994, səh. 78). Belə halda **-ıb** şəkilçili feili bağlamalar cümlənin qeyri-müstəqil həmcins xəbəri hesab edilir: “Bunlar (-ıb şəkilçili feili bağlamalar-A.M.) sadə cümlənin qeyri-müstəqil həmcins xəbəri olarkən, bir işin əvvəlcə başlandığını və ikinci iş başlanmadan (başlansa da hələ qurtarmadan) bitdiyini bildirir və özündən sonra gələn əsas işin zaman və şəxsi ilə uzlaşa bilmir” (M.Hüseynzadə “Müasir Azərbaycan dili”; 1973, səh. 248). Ali

məktəblər üçün “Müasir Azərbaycan dili” (IV h. 1972, səh. 300) dərsliyində də həmcins feili xəbərlərə aid belə bir cümlə verilmişdir. “O, kitabxanaya **gedib**, müxtəlif əlyazmalarını oxuyub, lazımi məlumatlar **topladı”.** Z.Budaqovanın “Azərbaycan dilində durğu işarələri” kitabında (“Elm” nəşriyyatı, 1977) yazılır: “-ıb; -araq şəkilçili feili bağlamalar **və feili bağlama tərkibləri ilə ifadə olunan həmcins üzvlər** (seçdirmə mənimdir - A.M.) **vergül ilə fərqləndirilir:** O, əl-üzünü **yuyub, geyindi** və evdən çıxdı”. Belə xəbərlərə ona görə “qeyri-müstəqil” deyilir ki, onların zamanı və şəxsi cümlədəki əsas xəbərdə ifadə olunur: O, **geyinib,** otaqdan **çıxdı**; Mən geyinib, otaqdan çıxdım; O, **geyinib,** otaqdan **çıxır;** Mən **geyinib,** otaqdan **çıxıram** və s.

Beləliklə, yuxandakı cümlə, üzvlərinə görə belə təhlil edilir: **“geyinib”** və **“çıxdı”** - xəbər, “o” - mübtəda, **“paltosunu”** - tamamlıq, **“otaqdan”** isə - yer zərfliyidir.

**Sual**. **Kimin ki qədimdir şeiri, sənəti,**

**Onun əbədidir mədəniyyəti -** cümləsi **hansı növ budaq cümləli tabeli mürəkkəb cümlədir?**

***N. Abdulov. Bakı şəhəri***

**Cavab.** Göründüyü kimi, tabeli mürəkkəb cümlənin baş cümləsində “əvəzlik-qəlib” vəzifəsində “onun” əvəzliyi işlənmişdir. Orta məktəb dərsliyinə görə, “Bu cür sözlər (əvəzlik-qəliblər - A.M.) baş cümlədə hansı cümlə üzvü vəzifəsindədirsə, budaq cümlə də onun adı ilə adlanır” (Q. Kazımov, Y.Seyidov “Azərbaycan dili”, 1995, səh. 209). Verilmiş nümunədə isə “qəlib” III növ təyini söz birləşməsinin birinci tərəfidir ki, o da ayrılıqda cümlə üzvü ola bilmir. Elmi dilçilikdə belə nümunələrdən çox vaxt yan keçilmiş, yalnız Q. Kazımovun “Müasir Äzərbaycan dili. Sintaksis” (2000-ci il) monoqrafıyasında buna müəyyən münasibət bildirilmişdir: “Bəzən baş cümlədə qarşılıq bildirən söz ismin yiyəlik halında olur və ikinci tərəflə birlikdə söz birləşməsi əmələ gətirir... (budaq cümlənin qəlibi bütövlükdə birləşmə deyil, yiyəlik halda işarə əvəzliyi olur)” (səh. 335). Müəllifə görə, belə halda bütöv birləşmə, yəni “onun” sözünün ikinci tərəflə yaratdığı birləşmə hansı cümlə üzvüdürsə, budaq cümlə də həmin adla adlandırılmalıdır. Məsələn: “Hər kəs bu şərəfli işdən həzz almırsa, **onun həyatı** mənasızdır” -

mübtəda budaq cümləli (səh. 335), "Harada işləyirsən, **oranın şəraitini** yaxşılaşdırırsan" - tamamlıq budaq cümləli (səh. 308) tabeli mürəkkəb cümlə sayılır.

Aydındır ki, budaq cümlənin növü onun baş cümlədə yerinə yetirdiyi funksiyadan asılıdır. Əgər belədirsə, bizcə, haqqında söhbət gedən cümlələri də öz adı ilə adlandırmaq lazımdır. Məsələn, belə bir izah vermək olar ki, **bəzən budaq** cümlə baş cümlədəki **üzvü bütövlükdə yox, onun bir hissəsini izah və əvəz edir.** Bu tip budaq cümlələri ayrıca bir qrupa daxil etmək mümkündür. Onsuz da budaq cümlələr həmişə baş üzvdəki hər hansı bir üzvün yerində işlənmir və bütün hallarda cümlə üzvünün adı ilə adlandırılmır. Bu fakt orta məktəb dərsliklərində də öz əksini tapıb: "Tabeli mürəkkəb cümlənin tərkib hissəsi olan budaq cümlələr ya baş cümlənin buraxılmış bir üzvü yerində işlənir (bura mübtəda, xəbər, tamamlıq və b. cümlə üzvlərinin adı ilə adlandırılanlar daxildir-A.M.), yaxud da bütövlükdə baş cümlənin ümumi məzmunu ilə (bura şərt və qarşılaşdırma budaq cümləri aiddir - A.M.) bağlı olur" (Göstərilən dərslik, səh. 204). Deməli, budaq cümlələr baş cümlədəki roluna görə 2 yerə ayrılır: a) baş cümlənin hər hansı bir üzvün yerində işlənənlər; b) baş cümlənin ümumi məzmununa aid olanlar. Bura təhlilə cəlb etdiyimiz cümlə tiplərini də nəzərə alıb üçüncünü əlavə etmək olar: c) **baş cümlədəki hər hansı bir üzvün birinci tərəfinin yerinda işlənənlər.** Lakin bizcə, nə qədər ki bu məsələ cilalanıb orta və ali məktəb dərsliklərinə gətirilməyib, professor Q. Kazımovun fikrini daha etibarlı mənbə kimi götürmək lazımdır. Bu baxımdan sualdakı cümlə mübtəda budaq cümləli tabeli mürəkkəb cümlədir. Çünki baş cümlədəki "qəlib" (onun) III növ təyini söz birləşməsi ilə ifadə olunan mübtədanın (onun mədəniyyəti) birinci tərəfidir.

*"Azərbaycan dili və ədəbiyyatı tədrisi", 2002, №3*